

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 5 fevral 2025-ci il №9 (2918) https://mod.gov.az Qiyməti 30 qəpik


## Azərbaycan Ordusu dövlətimizin təhlükəsizliyinin, müdafiəsinin və suverenliyinin qarantıdır

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli Sərəncamı ilə 2025-ci il ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan olunub. Azərbaycan Konstitusiyasının bəyan etdiyi niyyətlərdən biri kimi ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğunu, 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qazanılan şanlı Qələbəmizin 5-ci ildönümü nəzərə alaraq imzalanan bu Sərəncam dövlətçiliyimizin inkişafında, suverenlik dəyərlərimizin möhkəmləndirilməsində mühüm əhəmiyyət kəsb edən bir hadisədir.***

### Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

### *Dövlət suverenliyimizin bərpası Azərbaycan xalqının yaddaşında əbədi qalacaqdır*



Dövlətimizin müstəqillik tarixinin ən mühüm hadisələrindən olan Azərbaycan Respublikası Konstitusiyası Ulu Öndər Heydər Əliyevin gərgin əməyi nəticəsində 1995-ci il noyabrın 12-də ümumxalq referendumu vasitəsilə qəbul olunub. 1995-ci il iyunun 5-də Heydər Əliyevin sədrliyi ilə Konstitusiya Komissiyasının ilk iclasından noyabr ayında keçirilən referendumadək Ümummilli Lider Azərbaycanın Əsas Qanununun hazırlanmasına, onun bütün prinsipial müddəalarının geniş ictimaiyyət tərəfindən müzakirəsinə şəxsən rəhbərlik etmişdi. Ulu Öndər bu sənədin təkcə dövrün tarixi və siyasi reallıqlarının deyil, bütövlükdə xalqın milli-mənəvi dəyərlərinin süzgəcindən keçərək, qəbul olunmasına çalışırdı və buna da nail olmuşdu. Konstitusiyanın qəbulu ölkəmizdə genişmiqyaslı qanunvericilik və məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə yol açmış, müasir cəmiyyətin əsas inkişaf istiqamətlərini müəyyənləşdirən ideya və dəyərlər geniş şəkildə təsbit edilmişdir. Belə ki, Konstitusiyada dövlət hakimiyyət orqanlarının demokratik qaydada formalaşdırılması, insan şəxsiyyətinə və ləyaqətinə hörmət, onun hüquqlarının səmərəli müdafiəsi mexanizmlərinin mövcudluğu, siyasi sistemdə plüralizmə təminat verilməsi, ümumbəşəri dəyərlərə sadiqlik və digər dəyərlər öz əksini tapmışdır. Ölkənin Əsas Qanununun milli dövlətçilik tarixində müstəsna əhəmiyyəti nəzərə alınaraq, Ümummilli Lider Heydər Əliyev tərəfindən imzalanan 1 noyabr 1996-cı il tarixli Fərmana əsasən, hər il noyabrın 12-si Azərbaycanda Konstitusiya Günü kimi qeyd edilir.

**(Ardı 3-cü səhifədə)**

## HİI-nin Xarici dil mərkəzində buraxılış mərasimi keçirilib



*Milli Müdafiə Universitetinin (MMU) Hərbi İdarəetmə İnstitutunda (HİI) Xarici dil mərkəzinin, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının təşkilatçılığı ilə keçirilən intensiv ingilis dili kursları başa çatıb.*

Müdafiə Nazirliyi xəbər verir ki, kursların başa çatması münasibətilə HİI-də buraxılış mərasimi keçirilib.

Tədbirdə çıxış edən MMU rektorunun elm üzrə müavini - Hərbi Elmi Tədqiqat İnstitutunun rektoru general-mayor Arif Həsənov, Birləşmiş Krallığın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab Fergus Auld və Britaniya Şurasının Britaniya Konsul təşkilatının Azərbaycan Respublikasındakı filialının direktoru Nərgiz Hacıyeva kursu müvəffəqiyyətlə bitirən məzunları təbrik edərək onlara xidmətlərində uğurlar arzulayıblar.

Kurs birinciləri yaradılan şəraitə görə Müdafiə Nazirliyinin rəhbərliyinə, eləcə də ingilis dilinin öyrədilməsində əməyi keçən professor və müəllim heyətinə dinləyicilər adından dərin minnətdarlıqlarını bildiriblər.

Sonda məzunlara sertifikatlar təqdim olunub.



Azərbaycan Ordusunda yeni tədris dövrü ilə bağlı tədbirlər keçirilib

4-cü səhifədə



Şəmkirli igidin xatirəsi Nehrəm kəndində yad olundu

5-ci səhifədə



Qəhrəmanlıq sədaqətin tarixidi...

6-cı səhifədə



“Silahını təmiz saxla...”

6-cı səhifədə

# Azərbaycan-Qazaxıstan hərbi əməkdaşlıq məsələləri müzakirə edilib



Azərbaycan Respublikasının müdafiə nazirinin müavini - Baş direktor cənab Aqil Qurbanovun rəhbərlik etdiyi nümayəndə heyəti Qazaxıstan Respublikasına səfər edib.

Müdafiə Nazirliyi xəbər verir ki, səfər çərçivəsində Baş direktor Qazaxıstan Respublikasının müdafiə naziri general-polkovnik Ruslan Jaksılıkov ilə görüşüb. Tərəflər ölkələrimiz arasında hərbi əməkdaşlığın qədim tarixi köklərə əsaslanan dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu xüsusi qeyd edib.

Görüşdə Azərbaycan və Qazaxıstan arasında hərbi, hərbi-texniki, hərbi təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib, regional təhlükəsizlik məsələlərinə dair ətraflı fikir mübadiləsi aparılıb.

Daha sonra Qazaxıstan Respublikası müdafiə nazirinin müavini general-mayor Şayx-Xasan Jazıkbayev ilə görüş keçirilib.

Hər iki tərəf bu cür görüşlərin hərbi əməkdaşlığın genişləndirilməsi baxımından zəruriliyini vurğulayıb, keçirilən birgə təlimlərin hərbi qulluqçularımızın peşəkarlığının artırılmasına və ordularımızın daha da güclənməsinə müsbət təsir etdiyini bildirib.



Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran bir sıra digər məsələlərə dair ətraflı müzakirələr aparılıb.

# "Qərargah zabiti kursu"nun buraxılışı olub



Milli Müdafiə Universitetinin Hərbi İdarəetmə İnstitutunda "Qərargah zabiti kursu"nun 1-ci buraxılışına həsr olunmuş tədbir keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, tədbirdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Milli Müdafiə Universitetinin rektoru general-mayor Gündüz Əbdülov çıxış edərək kursu müvəffəqiyyətlə bitirən zabitləri Müdafiə Nazirliyinin rəhbərliyi adından təbrik edib, onlara uğurlar arzulayıb. General-mayor G.Əbdülov Azərbaycan Ordusunda aparılan islahatlar, o cümlədən yeni hərbi idarəetmə təhsil sistemi barədə tədbir iştirakçılarına ətraflı məlumat verib, "Qərargah zabiti kursu"nun zabitlərin xidməti vəzifələrinə hazırlanmasında mühüm rol oynayacağını bildirib.



Məzunlar adından çıxış edən kurs birincisi mayor Tural Abbasov yaradılan şəraitə, eləcə də kursun yüksək səviyyədə təşkili və keçirilməsinə görə Müdafiə Nazirliyi və Milli Müdafiə Universitetinin rəhbərliyinə, professor-müəllim heyətinə minnətdarlıqlarını bildirib.

Sonda kursu bitirən hərbi qulluqçulara sertifikatlar təqdim edilib.

Qeyd edək ki, "Qərargah zabiti kursu" müasir çağırışlara cavab verə biləcək peşəkar hərbi qulluqçuların yetişdirilməsi məqsədilə hərbi təhsil sistemində aparılmış əsaslı islahatlar nəticəsində yaradılmış yeni hərbi idarəetmə təhsil sisteminin mühüm hissəsidir. Bu sistem "Xidmətboyu təhsil konsepsiyası"na əsaslanır və Azərbaycan Ordusunun hərbi qulluqçularının növbəti vəzifələrə hazırlanması üçün bütün xidmət müddətinə yayılmış ardıcıl, bir-birini tamamlayan sistemli təhsil imkanlarını ehtiva edir. Hərbi idarəetmə təhsil sistemi çərçivəsində həyata keçirilən kurslar aşağıdakı qaydadadır:



- qoşun (qüvvə) növü qərargahlarında xidmət edəcək gizirlərin hazırlanması üçün "Yuxarı qərargah giziri kursu";
- tabor səviyyəsində "Təməl qərargah zabiti kursu";
- briqada səviyyəsində "Qərargah zabiti kursu";
- korpus və ordu səviyyəsində "İdarəetmə akademik kursu";
- qoşun (qüvvə) növləri arasında strateji səviyyədə "Müştərək idarəetmə kursu";
- ali rütbəli zabitlər üçün "Strateji liderlik və milli təhlükəsizlik kursu";
- hərbi-siyasi səviyyədə "Strateji araşdırmalar və dövlət müdafiəsini idarəetmə akademik kursu";
- "Hərbi və dövlət müdafiəsini idarəetmə" və "Menecment" ixtisasları üzrə magistratura proqramları.

# 2 Fevral - Gənclər Günü münasibətilə Azərbaycan Ordusunda silsilə tədbirlər keçirilib





Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, 2 Fevral - Gənclər Günü ilə əlaqədar Azərbaycan Ordusunda silsilə bayram tədbirləri keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, tədbirlərdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və müstəqilliyimiz, ərazi bütövlüyümüz uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edənlər Gənclər Gününün təntənəli surətdə qeyd olunmasının Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu, Ümummilli Liderin ikinci dəfə hakimiyyətə qayıdışından sonra Azərbaycanda dövlət gənclər siyasətinin əsasının qoyulduğunu və bu gün də həmin siyasətin Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini xüsusi vurğulayıblar.

Tədbirlərdə Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzi, Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzi, eləcə də rayon mədəniyyət şöbələrinin yaradıcı kollektivləri şəxsi heyət qarşısında maraqlı proqramlar ilə çıxış ediblər.

# Azərbaycan Ordusu dövlətimizin təhlükəsizliyinin, müdafiəsinin və suverenliyinin qarantıdır

**(Əvvəli 1-ci səhifədə)**

İstər Ulu Öndərin hakimiyyəti dövründə, istərsə də onun siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə hüquq sistemi, insan hüquqlarının təminatı və dövlət idarəetməsinin müasirləşdirilməsi sahəsində ciddi nailiyyətlər əldə olundu. Dövlətimizin başçısının rəhbərliyi ilə bu nailiyyətlərin davam etdirilməsi və konstitusiya prinsiplərinin dərinləşdirilməsi üçün ardıcıl islahatlar həyata keçirildi. Azərbaycanın sürətli inkişafı nəticəsində yeni dövrün tələblərinin yaratdığı zərurətlə əlaqədar, 2002-ci il avqustun 24-də referendum yolu ilə Konstitusiyanın 24-cü maddəsində, 2009-cu il martın 18-də isə 25-ci maddəyə əlavə və dəyişikliklər olundu. Bu dəyişikliklər ölkəmizin sosial-iqtisadi bazasının gücləndirilməsi, eyni zamanda, vətəndaşların hüquq və azadlıqlarına daha etibarlı təminat verilməsindən irəli gəlir. 2016-cı il sentyabrın 26-da Prezident İlham Əliyevin təşəbbüsü ilə keçirilən referendumda Konstitusiyaya üçüncü dəfə əlavə və dəyişikliklər edildi. Konstitusiyanın 29-cu maddəsinə edilən əlavə və dəyişikliklər müxtəlif sahələri əhatə etməklə, ali dövlət, məhkəmə hakimiyyəti orqanlarının və bələdiyyələrin işinin təkmilləşdirilməsinə, insan hüquq və azadlıqlarının daha səmərəli təmin edilməsinə yönəlmişdir. Beləliklə, əsas qanunumuz daha da təkmilləşdirilərək yeni dövrün tələblərinə uyğunlaşdırıldı.

Müstəqilliyini əldə etdikdən sonra ölkəmiz daim təcavüz və işğala, eləcə də beynəlxalq qurumların təzyiqlərinə məruz qalırdı. Ermənistan 1990-cı illərin əvvəllərindən başlayaraq Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin tələblərini kobud şəkildə pozaraq, Azərbaycana qarşı işğalçılıq siyasəti həyata keçirdi və hərbi gücdən istifadə edərək, ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizini işğal etdi. Bundan başqa, mənfur qonşularımız Ermənistanda və işğal olunmuş Azərbaycan torpaqlarında azərbaycanlılara qarşı etnik təmizləmə aparır, insanlıq əleyhinə cinayətlər və hərbi cinayətlər törədirdi. Nəticədə şəhər və kəndlərimiz viran edildi, həmvətənlərimiz öz ata-baba yurdundan didərgin düşdülər.

Təməli Dahi Lider Heydər Əliyev tərəfindən qoyulan milli ordu quruculuğu prosesi dövlətimizin başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirildi, Azərbaycan gündən-günə güclənərək dövlət müstəqilliyinin bütün atributlarını təmin etməyə nail oldu. Həyata keçirilən köklü islahatların və kompleks tədbirlərin nəticəsində Azərbaycan Ordusunun maddi-texniki bazası daha da möhkəmləndirildi, ordumuzun arsenalına ən müasir silah-sursat və hərbi texnika daxil edildi, keçirilən intensiv təlimlər sayəsində hərbi qulluqçularımızın döyüş qabiliyyəti durmadan təkmilləşdirildi.

"Hər bir azərbaycanlı bilməlidir və hazır olmalıdır ki, əgər bizim bütün cəhdlərimiz nəticə verməsə, nəyin bahasına olursa-olsun, canımızın, qanımızın bahasına olsa da, işğal olunmuş torpaqlarımızı azad etməli, Azərbaycanın sərhədlərinin toxunulmazlığını, ərazi bütövlüyünü təmin etməliyik", - deyən Ümummilli Lider Heydər Əliyevin arzuları reallaşdı.

Sentyabrın 27-də Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək, cəbhə boyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlardan, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutdu. Mülki əhali və hərbi qulluqçular arasında itkilər və yaralılar oldu. Azərbaycan Ordusunun ön xətt bölmələri düşmənin bu təxribatının qarşısını almaq və qoşunların qarşıdurma xəttinə yaxın zonalarda yaşayan mülki əhalinin təhlükəsizliyini təmin etmək, Azərbaycan Respublikası konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə əks-hücum əməliyyatına başladı. 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə hərbi qulluqçularımız igidlik və şücaət nümayiş etdirərək tarixi yurd yerlərimizi işğaldan azad etdilər.

Vətən müharibəsindəki uğursuzluğundan nəticə çıxara bilməyən Ermənistan yenidən təxribatlara əl atırdı. Azərbaycanın Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin qalıqları ordumuzun mövqelərini müxtəlif çaplı silahlardan sistemli şəkildə atəşə tutur, mövqelərimizin dərinliyinə sızaraq, minalardan təmizlənmiş əraziləri və mülki təyinatlı yolları terror-təxribat məqsədilə yenidən minalayırdı. Azərbaycan Respublikası Müdafiə Nazirliyi dəfələrlə bəyan etmişdir ki, 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanatın müddəalarına zidd olaraq, Azərbaycanın Qarabağ bölgəsindəki Ermənistan silahlı birləşmələrinin qalıqlarının mövcudluğunu davam etdirməsi regional sülh və sabitlik üçün ciddi təhlükə mənbəyidir. 2023-cü ilin 19-20 sentyabr tarixlərində üçtərəfli Bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərk-silah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə antiterror əməliyyatına başlanıldı. 24 saatdan az davam edən əməliyyat nəticəsində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa olundu. İstər Vətən müharibəsində, istərsə də antiterror əməliyyatında qazanılan qələbələr yalnız hərbi deyil, həm də hüquqi və siyasi baxımdan suverenlik dəyərlərinin möhkəmləndirilməsidir. Qalib Azərbaycan Ordusu bu əməliyyat zamanı qarşıya qoyulmuş bütün vəzifə və tapşırıqları yüksək peşəkarlıqla yerinə yetirdi. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli, müdrik siyasəti və şəhidlərimizin canı, qanı bahasına Dövlət Bayrağımız bu gün suverenliyimizin bərqərar olunduğu bütün ərazilərimizdə əzəmətlə dalğalanmaqdadır.

Bu gün xalqımız Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əzəli torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün, dövlət suverenliyimizin və ölkəmizin bütün ərazilərində Azərbaycan Respublikası Konstitusiyasının hüquqi qüvvəsinin tam bərpasının təntənəsini qürurla yaşayır.

Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilməsi Azərbaycanın dövlətçilik ənənələrini daha da möhkəmləndirmək, xalqın hüquq və azadlığının təmin olunmasına dair öhdəlikləri vurğulamaq məqsədi daşıyır. Milli suverenliyimizin və hüquqi dəyərlərimizin təbliği baxımından tarixi bir addım olan bu qərar ötən dövrdə olduğu kimi, cari il ərzində həyata keçiriləcək genişmiqyaslı islahatlarda Azərbaycan xalqının hüquqi dövlət quruculuğu yolunda irəliləməsinə zəmin yaradacaqdır. Şübhəsiz ki, işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinin yüksək səviyyədə həyata keçirilməsinə, o cümlədən Böyük Qayıdışa layiqli töhfə verən qalib Azərbaycan Ordusu bundan sonra da Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi Anda və nizamnamələrə daim sadiq qalaraq, yeni uğurlar əldə etmək üçün döyüş və mənəvi-psixoloji hazırlığını daim gücləndirəcək.

**Baş leytenant**
**Elçin İMANOV**
**"Azərbaycan Ordusu"**

## Azərbaycanla NATO arasında tərəfdaşlıq məsələləri müzakirə edilib

Yanvarın 31-də Azərbaycan Respublikasının NATO yanında nümayəndəliyinin başçısı Cəfər Hüseynzadə NATO Baş katibinin Siyasi məsələlər və təhlükəsizlik siyasəti üzrə köməkçisi səfir Boris Rüge ilə görüşüb.




AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanın NATO ilə 2024-cü il üzrə Sülh Naminə Tərəfdaşlıq çərçivəsində tərəfdaşlığının yekun nəticələri ilə bağlı müzakirə aparılıb. Qarşı tərəf Azərbaycan-NATO tərəfdaşlığının 30-cu ildönümünə təsadüf edən 2024-cü il üzrə həyata keçirilmiş əməkdaşlığın səviyyəsi, o cümlədən Azərbaycanla NATO arasında yüksəksəviyyəli səfərlər və Azərbaycanda təşkil edilmiş bir sıra tədbirlərlə bağlı öz məmnunluğunu ifadə edib.

Eyni zamanda, keçirilmiş görüşdə 2025-ci il üçün NATO ilə Azərbaycan arasında əməkdaşlıq imkanları ilə bağlı fikir mübadiləsi aparılıb.

## Hərbi vəzifəlilərin növbəti təlim toplanışı başlayıb



Cari ilin hazırlıq planına əsasən, ehtiyatdan çağırılan bir qrup hərbi vəzifəlinin cəlb edildiyi növbəti təlim toplanışı başlayıb.

Müdafiə Nazirliyi xəbər verir ki, hərbi vəzifəlilər toplanış məntəqəsinin qərargahında müvafiq qeydiyyatdan və həkim müayinəsindən keçdikdən sonra hərbi geyim və digər təminat növləri ilə təmin olunublar.

Təlim toplanışının əsas məqsədi hərbi vəzifəlilərin döyüş hazırlığı səviyyəsinin, bilik və bacarıqlarının artırılması, o cümlədən praktiki vərdişlərinin təkmilləşdirilməsidir.

## Müdafiə Nazirliyinin məlumatı

*Azərbaycan Respublikası Müdafiə Nazirliyində hərbi xidmətkeçmə ilə bağlı yeni konsepsiyaya əsasən, hərbi xidmətdə olan yüksək intellektə malik istedadlı hərbi qulluqçular gənc əsgərlərin hazırlığı proqramını başa çatdırdıqdan sonra hərbi xidmətlərini Milli Müdafiə Universitetinin tərkibində yaradılmış bölmələrdə xüsusi şəraitdə davam etdirirlər.*




Həmin hərbi qulluqçular qeyd edilən bölmələrdə öz ixtisaslarına uyğun müxtəlif layihələrə və fəaliyyətlərə cəlb olunurlar.

İntellektual qabiliyyətli bölmələrdə cari təqvim ilindən əvvəlki təqvim ilinin nəticələrinə görə beynəlxalq reytinqi ("Times Higher Education (THE) World University Rankings" və ya "Academic Ranking of World Universities" (Shanghai)) ilk 500-cü sırada yer alan xarici ali təhsil müəssisəsinin bakalavriat və ya magistratura proqramlarının məzunları olan çağırışçıların həmin intellektual qabiliyyətli bölmələrdə xidmət etmələri nəzərdə tutulmuşdur.

Hazırda Müdafiə Nazirliyinin tabeliyindəki hərbi hissələrdə xidmət keçən, yuxarıda qeyd olunmuş siyahılara yer alan xarici təhsil müəssisələrində təhsil almış hərbi qulluqçuların adıçəkilən bölmələrdə xidmət etmələrini təmin etmək məqsədilə onların ailə üzvlərindən 28.02.2025-ci il tarixədək aşağıda qeyd olunan məlumatları **intel_unit@mmu.edu.az** elektron ünvanına göndərmələri xahiş olunur:

- çağırışçının adı, soyadı və ata adı;
- çağırış rübü və ili (çağırıldığı tarix);
- Xarici dövlətlərin təhsil müəssisələrində ali təhsil almış şəxslərin ixtisaslarının Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA) tərəfindən tam tanınmasına (akademik və peşə) dair sənəd (PDF formatında) və ya tanınma prosesinin başlamasına dair sistemdən çıxarış.

**Qeyd**: Növbəti çağırışlarda Müdafiə Nazirliyinin tabeliyindəki hərbi hissələrdə xidmətə başlayacaq, yuxarıda qeyd olunan kateqoriyaya aid olan çağırışçıların intellektual bölmələrdə xidmət etmələrinin təmin edilməsi məqsədilə müvafiq məlumatların onların ailə üzvləri tərəfindən çağırış ayının əvvəlindən növbəti ayın sonunadək **intel_unit@mmu.edu.az** elektron ünvanına göndərilməsi xahiş olunur.

# Azərbaycan Ordusunda yeni tədris dövrü ilə bağlı tədbirlər keçirilib



*2025-ci ilin hazırlıq planına uyğun olaraq, Azərbaycan Ordusunda yeni tədris dövrünün başlanması ilə əlaqədar tədbirlər keçirilib.*

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, döyüş bayrağı sıra meydanına gətirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, tədbirlərdə Müdafiə Nazirliyi rəhbərliyinin qoşunların döyüş hazırlığının yüksək səviyyədə saxlanılması, yeni tədris üsul və metodlarının seçilməsi ilə bağlı əmr və tələbləri, eləcə də digər məsələlər şəxsi heyətin diqqətinə çatdırılıb. Müasir taktiki üsulların işlənilməsi, döyüş hazırlığının yüksək səviyyədə saxlanılması məqsədilə yeni tədris dövründə keçirilən təlim və məşqlərin keyfiyyətinin, həmçinin intensivliyinin artırılmasının vacibliyi qeyd edilib.

Sonra şəxsi heyətin tribuna önündən təntənəli keçidi olub.

Sonda yeni tədris dövrünün başlanması ilə əlaqədar hərbi hissələrdə sıra baxışları keçirilib, maddi-tədris bazaları, təlim şəhərcikləri, döyüş texnikası və silahlar, şəxsi heyətin təchizatı, eləcə də rəhbəredici və digər normativ sənədlərin tələblərinin icrası, tədris vəsaitlərinin mövcudluğu və tətbiqi yoxlanılıb.

* * *

Hərbi Dəniz Qüvvələrində (HDQ) keçirilən tədbirdə Hərbi Dəniz Qüvvələrinin komandanı birinci dərəcəli kapitan Şahin Məmmədov tədris dövrünün başlanması münasibətilə şəxsi heyəti təbrik etdi, Müdafiə Nazirliyi rəhbərliyinin tapşırıqlarını çatdırdı. Qeyd olundu ki, döyüşə və səfərbərliyə hazırolmanın yüksək səviyyədə saxlanılması, döyüş hazırlığı prosesinin səmərəli təşkili, tədris dövründə yeni üsul və metodların seçilməsi daim diqqət mərkəzində olmalıdır. Şəxsi heyətin peşəkarlığının artırılması, mənəvi-psixoloji vəziyyətin yüksək səviyyədə saxlanılması istiqamətində lazımi tədbirlər görülməlidir.

**Baş leytenant**
**Rauf ƏLƏSGƏROV**
**"Azərbaycan Ordusu"**



Hərbi Hava Qüvvələrində hərbi hissənin sıra meydanında təşkil olunan tədbirdə Vətən Müharibəsi Qəhrəmanı polkovnik Rəşad Nadirov yeni tədris dövrünün başlanması münasibətilə şəxsi heyəti təbrik etdi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ordumuzun qarşısına qoyduğu mühüm vəzifələrdən, eləcə də Müdafiə Nazirliyinin rəhbərliyinin tapşırıqlarından danışdı. Qeyd etdi ki, İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı nəticəsində Vətənimizin ərazi bütövlüyü və suverenliyi tam təmin olundu. “Buna baxmayaraq ordumuzun döyüş qabiliyyəti hər zaman yüksək olmalıdır. Biz hərbi qulluqçular həm nəzəri bilikləri, həm də praktiki çalışmaları dərindən mənimsəməliyik. Ordumuzun peşəkarlığının artırılmasına yeni tədris dövrünü ən uyğun zaman hesab etmək olar”.

Daha sonra komandir heyəti şəxsi heyətin birinci tədris dövrünə hazırlıq səviyyəsinin öyrənilməsi məqsədilə sıra baxışı keçirdi. Yeni tədris ili münasibətilə düzülmüş hərbi qulluqçular təyin olunmuş məsafələrdə öz yerlərini tutdular. Onlar səhra çantalarını, şəxsi əşya torbalarını və lazım olan sənədləri təqdim etdilər. Bölmələr sıra meydanından təntənəli marşla keçərək təlim yerlərinə yollandılar.

Yeni tədris dövrünün ilk dərsi ictimai-siyasi hazırlıq oldu. Hərbi qulluqçulara regionda hərbi siyasi-iqtisadi vəziyyət, Azərbaycan Respublikası Prezidentinin, müdafiə nazirinin ordu quruculuğunun müasir mərhələsində zabit (komandir) heyəti qarşısına qoyduğu vəzifə və tapşırıqlar mövzusunda keçirilən məşğələ diqqəti cəlb etdi. Qrup rəhbərlərinin dərsə ciddi hazırlaşdıqlarını məşğələnin gedişində gördük. Sinif otaqlarında keçirilən dərslərdə dinləyiciləri düşündürən mövzu ilə bağlı suallara qrup rəhbərləri izahlı şəkildə cavab verdilər.






Zabit Əsgər Möhsümovun sözlərinə görə yeni tədris dövrünün ilk həftəsi "Həyəcan" həftəsi olur. Buna görə də həftə ərzində günün istənilən saatında şəxsi heyətə "Həyəcan" komandası verilə bilər. Onlar bununla bir daha “döyüşə” getməzdən əvvəl “səfər” vəziyyətinə gəlməklə toplanma məntəqəsində nəzərdə tutulan vaxtda olacaqlar.

Brifinq zalına toplaşan komandir heyəti ilə keçirilən məlumatlandırmada polkovnik-leytenant Sabit Hüseynov tədris dövrünün ilk həftəsində eskadrilyalarda dərslərin təşkili ilə bağlı təlimatlar verdi. Hər bir hərbi qulluqçunun qarşıda duran vəzifələri uğurla yerinə yetirməsi üçün yeni tədris dövründə bilik və bacarıqlarını daha yüksək səviyyədə mənimsəyəcəkləri xüsusi qeyd olundu.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

*Nümunəvi xidmət*

# Bacarıqlı sürücü

*Azərbaycan Ordusunun döyüş qabiliyyətinə təsir edən mühüm amillərdən biri də hərbi qulluqçuların onlara təhkim olunmuş silah və texnikanın daim saz vəziyyətdə saxlanılması, vaxtlı-vaxtında zəruri texniki qulluğun göstərilməsi, qarşıda duran tapşırıqların icrasında fəaliyyətin fasiləsiz təmin edilməsidir. "N" hərbi hissəsində texnikaya böyük həvəslə texniki qulluq göstərərək diqqətimizi çəkən hərbi qulluqçumuz müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Namus İsmayılov ilə tanış olduq.*

Əslən Neftçala rayonundan olan Namus İsmayılov 11 ildir ki, Azərbaycan Ordusunun sıralarında xidmət edir. O, Vətənə sədaqəti, nizam-intizamı və peşəkarlığı ilə fərqlənən hərbi qulluqçulardandır. Ona yaxınlaşaraq avtomobilin texniki vəziyyətində bir problemin olub-olmadığını soruşduqda əminliklə bildirdi ki, idarə etdiyi texnika tam saz vəziyyətdədir və istənilən zaman çıxışa hazırdır.

Hərbçi olmağının səbəbini soruşanda isə Namus İsmayılov dedi ki, Vətəni sevmək, millətinə, xalqına az da olsa faydalı olmaq hər bir vətəndaşın vətəndaşlıq borcudur. "Hər kəs bu sevgini öz əməlləri ilə nümayiş etdirir. Seçdiyimiz peşəyə uyğun hər birimiz ana Vətənimizə xidmət edirik. Doğma Azərbaycanımıza xidmət etmək, Vətənin hər qarışına sinəmi sipər edib onu qorumaq mənim də amalım idi. Bu amal mənim peşə seçimimə öz təsirini göstərdi. Hər zaman çalışıram ki, xidmətimlə digərlərinə nümunə olum".

Namus İsmayılov öz ixtisası üzrə danışaraq bildirdi ki, sürücü ona təhkim olunan hərbi nəqliyyat vasitəsini istənilən hava şəraitində və müxtəlif relyefli ərazilərdə təhlükəsiz idarə etməli və ona vaxtlı-vaxtında texniki qulluq göstərməlidir. "Hərbi sürücü olmaq ikiqat məsuliyyətlidir. Çünki hərəkətdə olduğun zaman gözlənilmədən hadisə baş verə bilər. Qəfil yaranan nasazlıqları dərhal aradan qaldırmağı, qarşına çıxan çətin vəziyyətdən, döyüş meydanından, atəş altından çıxmağı bacarmalısan. Daim



üzərimizdə çalışmalı, həm nəzəri, həm də praktiki biliklərimizi artırmalıyıq. Sürücü həm də öz məsuliyyəti, peşəkarlığı, təmkini ilə digərlərindən seçilməli, həmçinin yol hərəkəti qaydalarını bilməli və onlara riayət etməlidir".

Söhbət əsnasında hərbi qulluqçumuzun Vətən müharibəsi və antiterror əməliyyatında iştirak etdiyini də öyrəndik. Qarşılaşdığı çətinliklərə baxmayaraq, döyüşlərdə təminatların daşınması tapşırıqlarını vaxtında yerinə yetirməyi bacarıb. Torpaqlarımızın işğaldan azad olunmasında az da olsa payı olduğu üçün özünü qürurlu hiss edir.

Namus İsmayılov ilə söhbətimiz xoş əhval-ruhiyyə yaratdı. Bir daha əmin olduq ki, Azərbaycan Ordusunda ixtisasından asılı olmayaraq xidmət edən hərbi qulluqçularımız öz peşəsinin sirlərinə dərindən yiyələnir, qarşıya qoyulmuş tapşırıqları uğurla yerinə yetirirlər.

**Şəlalə DÜNYAMALIYEVA**
**"Azərbaycan Ordusu"**

# Şəhidlərimizin xatirəsi hər zaman uca tutulur








Torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə yüksələn Məmmədov Zamin Allahverdi oğlu və Məmmədli Murad Teymurşah oğlunun xatirəsinə həsr olunan anım mərasimləri keçirilib.

Müdafiə Nazirliyinin nümayəndələri, şəhidin ailə üzvləri, yaxınları, kursant yoldaşları, döyüş yoldaşları və digər qonaqların iştirak etdiyi mərasimlərdə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.




Müdafiə Nazirliyi xəbər verir ki, çıxış edənlər şəhidlərimizin şərəfli həyat və döyüş yoluna nəzər salıb, orta məktəbdə və xüsusi təyinatlı təhsil müəssisələrində təhsil aldığı müddətdə hərb peşəsinə olan marağından, nizam-intizamından və məsuliyyətindən danışıblar.

Mərasimlərdə Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə ordumuzun ərazi bütövlüyümüzün bərpa olunmasında apardığı döyüş əməliyyatlarından, qazanılan tarixi qələbələrdən, bu şanlı qələbələrin qazanılmasında igid oğullarımızın göstərdiyi qəhrəmanlıq və şücaət nümunələrindən söz açıblar.

Sonra şəhidlərimizin həyat və fəaliyyətinin müxtəlif anlarını əks etdirən fotolar və videosüjetlər nümayiş etdirilib.

Şəhidlərimizin ailə üzvləri və yaxınları göstərilən diqqət və qayğıya, eləcə də onların xatirəsinin daim uca tutulduğuna görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Anım mərasimlərində şəhidlərimizin xatirəsinə həsr olunmuş şeirlər, vətənpərvərliyi və qəhrəmanlığı tərənnüm edən musiqilər səsləndirilib.



# Şəmkirli igidin xatirəsi Nehrəm kəndində yad olundu




*Vətənimizin hər yerində olduğu kimi, qədim Naxçıvanda da azadlığımız, suverenliyimiz və ərazi bütövlüyümüz uğrunda şəhid olanların xatirəsi həmişə böyük ehtiramla yad olunur. Babək rayonunun Nehrəm kəndində şəhid Səməd İsmayılov adına 1 saylı tam orta məktəbdə keçirilən tədbir "Azərbaycan Bayrağı" ordenli, şəhid zabit Ruslan Mehman oğlu Qəhrəmanovun xatirəsinə həsr edildi.*




Tədbirdə İcra hakimiyyətinin əməkdaşları, ictimaiyyətin nümayəndələri, Vətən müharibəsi iştirakçıları, şəhid ailələrinin üzvləri iştirak etdilər. Ümummilli Lider Heydər Əliyevin, Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Dövlət Himni səsləndirildi.

Bildirildi ki, ömürlərini Vətənə, xalqa həsr edənlərin həyatı hamımız üçün örnəkdir. 30 ilə yaxın davam etmiş işğala igid oğullarımızın tükənməz Vətən sevgisi ilə döyüşlərdə göstərdikləri rəşadətləri, şücaətləri ilə son qoyuldu. Azərbaycan Respublikasının Prezidenti dəfələrlə bildirib ki, biz qəhrəman əsgər və zabitlərimizin sayəsində qələbəyə nail olmuşuq.

Tədbirdə kapitan Ruslan Qəhrəmanovun həyatı, döyüş yolu haqqında ətraflı məlumat verildi. O, bacarıqlı, cəsarətli, fədakar zabit kimi tanınıb. Həmişə döyüş tapşırıqlarını yüksək peşəkarlıqla yerinə yetirib. 2016-cı ilin Aprel, 2020-ci ilin Tovuz döyüşlərində də cəsarəti, mərdliyi ilə fərqlənib.

Kapitan Ruslan Qəhrəmanov 1988-ci ildə Almaniyada dünyaya göz açıb. Sovet qoşunlarının tərkibində Almaniyada "gizir" rütbəsində xidmət edən atası Mehman daha sonra xidmətini Gəncə şəhərində davam etdirir. Torpaqlarımızı müdafiə edənlərin sırasında olur. Murovdağ, Tərtər, Ağdərə döyüşlərində iştirak edir. Döyüş əməliyyatlarında yaralanır. Birinci Qarabağ müharibəsi əlilidir. Ruslanda hərbçi peşəsinə marağı atasının keçdiyi həyat yolu yaradıb.

1997-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olub. Liseyi bitirdikdən sonra təhsilini indiki Heydər Əliyev adına Hərbi İnstitutda davam etdirib. Zabit peşəsinin sirlərini mənimsəyib. Buranı bitirdikdən sonra xüsusi təyinatlı hərbi hissələrin birində xidmətə başlayıb. İkinci Qarabağ müharibəsi başlayanda xidmət etdiyi hərbi hissə də döyüşlərə cəlb olunur. Murovdağ, Füzuli və Cəbrayılın işğaldan azad edilməsi üçün döyüşlərdə iştirak edir. 2020-ci il oktyabrın 5-də Cəbrayılda şəhid olur. Ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.

Babək rayon Təhsil şöbəsinin müdiri Sahil Əlizadə çıxışında bildirdi ki, Azərbaycan xalqı, rəşadətli ordumuz Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətənimizin tarixinə şanlı Zəfər yazdı. "Xalqımız dünyada qalib xalq kimi tanındı. Vətənimizin ərazi bütövlüyü tam bərpa olundu. Tarixi qələbəmiz bu gün xatirəsini yüksək ehtiramla yad etdiyimiz kapitan Ruslan Qəhrəmanov kimi zabit və əsgərlərin sayəsində mümkün oldu. Biz onların xatirəsini həmişə yad edəcəyik. Onların həyatı hər birimiz üçün örnəkdir".

Məktəbin direktoru Qabil Mirzəyev, müəllim Kifayət Səfərova və başqaları da Vətən müharibəsində qəhrəman oğulların göstərdikləri rəşadətlərdən, şəxsi igidliklərdən danışdılar. Şəhid qardaşı Tağı Məmmədov şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə dövlət rəhbərliyinə minnətdarlığını ifadə etdi.

Məktəb rəhbərliyinin təşəbbüsü ilə siniflərdən birinə kapitan Ruslan Qəhrəmanovun adı verildi. Şəhidin atası Mehman Qəhrəmanov şəhid ailələri adından tədbirin təşkilatçısına və iştirakçılara minnətdarlığını bildirdi.

**Mübariz MUSAYEV**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

*Milli Qəhrəmanlarımız*

# Qəhrəmanlıq sədaqətin tarixidi...

Qəhrəmanlıq Vətənə sevgidən yaranır.

Qəhrəmanlıq Vətən naminə adi olmayan səviyyədə göstərilən igidlikdi.

Qəhrəmanlıq müharibə şəraitində də olur, müharibədə də, müharibəsiz vaxtlarda da. Bütün məqamlarda qəhrəmanlığı yaradan Vətəndi, ürəkdi, dövlətə, dövlətçiliyə sədaqətdi...

2017-ci ilin yazında Tovuz rayonunda Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbaninin müəllifliyi ilə bənzərsiz bir tədbir keçirilirdi. Şəhidlər xiyabanından başlayan tədbir düşmənlə təmas xəttində yerləşən mövqedə davam etmişdi. Müdafiə Nazirliyinin yüksək rütbəli zabitlərinin, rayonun icra hakimiyyətinin rəhbərliyinin, ictimaiyyətin nümayəndələrinin iştirak etdiyi bu tədbirdə əsgərlərin də, zabitlərin də, iştirakçıların da baxışları deyirdi ki, təki Vətən yaşasın...

Mövqedə döyüş növbətçiliyinə gedən əsgərlər Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun barelyefinin - xatirə lövhəsinin önündə bir anlığa ayaq saxlamışdılar. Öyrənmişdik ki, hər gün döyüş növbətçiliyinə gedənlər də, döyüş növbətçiliyindən qayıdanlar da adı bu hərbi hissənin adlı siyahısına əbədi yazılmış qəhrəmanla belə ünsiyyətdə olurlar; baxışlar danışır. Əsgər baxışları Çingizə xitabən deyirdi ki, "Sənin döyüş yolunu bu gün biz davam etdiririk, sabah bizdən sonra xidmət edəcək əsgərlər davam etdirəcəklər. Sən əbədiyyən Vətənin əsgəri oldun, əsgər qardaşımız..."...

Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanov bu hərbi hissədə xidmət edib. 2016-cı ilin iyulundan bu



mövqedə Vətənə sevgilərlə, Vətənə sədaqətlə döyüş növbətçiliyi aparıb....

Döyüş növbətçiliyində təlimatın icracısı kimi qarşı tərəfin bütün fəaliyyətlərini diqqətlə izləyirdi, müşahidə sektorunda gördüklərinə vətəndaş kimi ürəyinin gözüylə baxırdı. Hərdən yumruqları düyünlənirdi. Xidmət yoldaşları xatırlamışdılar ki, Çingiz həmişə "Kaş universiteti bir il tez bitirəydim..." təəssüfü ilə yaşayırdı. Niyəsini soruşanlara deyərmiş ki, universiteti bir il tez qurtarsaydım, hərbi xidmətə bir il tez gələrdim, Aprel döyüşlərində iştirak edərdim...

Beş ay bu təəssüf Çingizin gündüzlər düşüncələrində olub, gecələr yuxularında...

Çingiz Qurbanov 1994-cü il noyabrın 24-də Qusar rayonunun Həzrə kəndində anadan olmuşdu, burada orta təhsil almışdı, 2012-ci ildə Azərbaycan Texniki Universitetinə qəbul olunmuşdu. Yaxşı oxuyurdu. Müəllimləri təhsilə həvəsini də, məsuliyyətliliyini də bəyənirdilər. Universiteti bitirəndə ona təhsilini davam etdirməyi, magistraturada oxumağı məsləhət görüblər. İstəməyib, "Hərbi xidmətdən sonra oxuyaram..." - deyib. Sonralar Əməkdar incəsənət xadimi polkovnik Abdulla Qurbaninin ssenarisi ilə çəkilmiş "Hər şey yaxşı olacaq" sənədli filmində tələbələr bunu da xatırladılar.

2016-cı il dekabrın 29-da əsgər Çingiz Qurbanov beş ay yaşadığı təəssüfü üstələdi, o təəssüfün zaman sərhədini keçdi, düşmənin üstünə tək getdi. Azərbaycan əsgəri kimi getdi - cəsarətlə, Vətən sevgisinin işığında qüdrətlə getdi.

Dekabrın 29-u idi. Hər gün müşahidə elədiyi nazik sulu çayı keçdi, seyrək ağaclığı keçdi, ağaclar sıxlaşanda bir anlığa ayaq saxlayıb qarşı tərəfi diqqətlə nəzərdən keçirdi. Gələn düşmənləri gördü. Atışdı. Şəhid olacağını bilirdi Çingiz. Şəhidliyinə qədər atışacaqdı. Son nəfəsinə kimi düşmənin nəfəsini tükəndirəcəkdi...

Çingiz şəhid oldu...

Azərbaycan əsgərinin bu cəsarəti, bu qəhrəmanlığı düşməni heyrətləndirmişdi. Neçə il əvvəl Etibar Hüseynov, sonralar Mübariz İbrahimov, indi də bu əsgər, hələ adını-soyadını bilmədikləri qəhrəman...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə əsgər Çingiz Qurbanova "Azərbaycanın Milli Qəhrəmanı" adı verildi. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri ilə xidmət etdiyi post Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun adınadı. Müdafiə nazirinin digər əmri ilə Azərbaycanın Milli Qəhrəmanı əsgər Çingiz Qurbanovun adı hərbi hissənin siyahısında daimi olacaq...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun ailə üzvlərini qəbul edəndə dedi: "...Çingiz bilirdi ki, ölümə gedir. Yəqin bilirdi ki, o, qeyri-bərabər döyüşdən salamat çıxmayacaq. Ancaq buna baxmayaraq o, Vətən torpağını müdafiə etmək üçün ölümə getdi və şəhidlik zirvəsinə qalxdı..." - bu kəlmələr qəhrəmanlığa dövlətin ehtiramıdı...

Beynəlxalq konvensiyalara məhəl qoymayan, müharibəaparma şərtlərinə əməl etməyən düşmən Çingiz Qurbanovun nəşini 39 gün vermədi. Azərbaycan əsgərinin cəsarəti onun hərbi qulluqçularını vahimələndirmişdi. Bu vahimənin ödənci kimi saxlayırdı Çingizin nəşini. Ancaq dövlətçilik qüdrəti düşmənin niyyətini çilik-çilik elədi. Azərbaycan dövlətinin qətiyyəti Ermənistanın inadını sındırdı...

Əsgər Çingiz Qurbanov böyük ehtiramlarla dəfn edildi...

"Çingiz Qurbanov adına post"a həmin gün Çingizin atası Salman kişi ilə birlikdə getmişdik. Xatırlayıram ki, atanın baxışları oğlunun daş baxışlarından üzülmürdü. Qəhər vardı o baxışlarda - oğlu oğullar sırasında deyil, qürur vardı o baxışlarda - oğlu Vətən naminə şəhid olub, həm də qəhrəmanlıqla, həm də belə qəhrəmanlıqla...

İllər sonra həmin postda həmin anları xatırlayanda zabitlərdən biri qəhəri üstələyən qürurla dedi ki, döyüş növbətçiliyinə gedənləri həmişə Çingizin baxışları uğurlayır...

Çingiz könül söhbətlərində dostlarına deyirmiş ki, magistraturada torpaqlarımız işğaldan azad ediləndən sonra oxuyacam; Çingizlər şəhidliyiylə bütün imtahanların fövqündə dayandılar...

Onu da xatırlayıram ki, əsgərlər Salman kişiyə Çingizin xidmət etdiyi postun yaxınlığından - nazik sulu həmin çayın bu sahilindən dərilən çiçəklər, bir də bir dəsmal ərası torpaq vermişdilər. "Bu torpağı qardaşımızın məzarının üstünə səpin, gülləri məzarının üstünə qoyun. Qoy ruhu qoruduğu torpaqdan, qoruduğu torpağın çiçəklərindən aralı düşməsin...", - demişdilər...

Salman kişi göz dolusu əsgərləri süzmüşdü, üçünü də bağrına basmışdı, "Hərəniz mənə bir Çingizsiniz...", - demişdi...

...Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun da qəhrəmanlığı Vətənə, dövlətə, dövlətçiliyə sədaqətin ifadəsi idi..

Qəhrəmanlıq sədaqətin tarixidi...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

*Nümunəvi xidmət*

# "Silahını təmiz saxla..."

Yolumuz işğaldan azad edilmiş ərazilərimizdədi. Bu yerlər 30 ilə yaxın düşmən işğalında qalmışdı. Səngərlərdən, döyüş mövqelərindən həsrətlə baxdığımız doğma yerlərə indi tam təhlükəsiz gedirik. Artıq bu yerlərdə nə işğalçı düşmən var, nə də partlayan mərmilər. İllər uzunu bu düzlərdə lalələrdən çox güllələr açılırdı. Güllərin ətri qeyb olub barıt qoxusu saçırdı. Gəlişimiz də şaxtalı günlərə təsadüf etdiyindən güllər də solmuşdu, avtomatlardan da daha güllələr açılmırdı. Barıt qoxusundan təmizlənib xoş ovqat yaradan torpaq qoxusu adamı valeh edirdi. Yoldan bir qədər aralıda dağların ətəyində təlim keçən əsgərlər diqqətimizi çəkdi. Kapitan Kamran Məmmədov tabeliyində olan bölməni təlimə cəlb etmişdi. Əsgərlər təlimin ardıcıllığını təmin edir, öncədən təyin olunmuş sahədə hədəfə doğru irəliləyirdilər. Təlimi idarə edən zabit döyüş hazırlığı planına uyğun olaraq növbəti döyüş atışlı təlimin keçirildiyini bildirdi. Təlimə cəlb olunan şəxsi heyət həm də tədris dövründə yiyələndikləri bilik və bacarıqları praktiki nümayiş etdirirdi.

Əsgərlər komandirin verdiyi komanda əsasında hündür olmayan dərə-təpəli, kol-koslu dağ yamacı ilə şərti düşmənin yerləşdiyi hədəfə doğru irəliləyirdilər. Onlar mümkün qədər görünməz hərəkət edirdilər. Hamı bir nəfər kimi komandirlərin əvvəlcədən aşıladığı bacarıqları, manevrləri keçməyi mümkün qədər gizlin həyata keçirməyə çalışırdı. Çalışmalar yüksək səviyyədə icra olunurdu. Diqqətimizi çəkənlərdən biri də pulemyotçu oldu.



Təlim yerində səngərdə mövqelənib diqqətlə irəli baxan pulemyotçu növbəti komandanı gözləyirdi. Səngərdə səmaya tuşlamış silahın qundağını çiynindən aralayıb elə uzandığı yerdəcə dirsəklənən pulemyotçu ilə söhbətə başladım.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Ramiq Həsənov İkinci Qarabağ müharibəsinin iştirakçısıdır. Füzuli rayonunun Qarabağ kəndindəndir. Füzuli rayonu ermənilər tərəfindən işğal olunanda onların da dədə-baba evi yağmalanıb, yerlə-yeksan olan evlərin quru divarları qalıb. Ən böyük arzusu da doğma kəndə qayıdıb orada yeni həyata başlamaqdı.

Ramiqin hərbçi olması heç də təsadüf olmayıb. Düşmən işğalında olan torpaqlarımızı azad görmək, ehtiyac yarandığı halda döyüşərək Vətənə övladlıq borcunu yerinə yetirmək Ramiqin hərbçi peşəsini seçməkdə əsas məqsədi idi. Cəbhə bölgəsində yaşayıb görmədiyi, ancaq böyüklərin dilindən sevə-sevə eşitdiyi doğma Qarabağ kəndinə qayıtmaq onun ən böyük arzusu olub.

Ramiq İkinci Qarabağ müharibəsi zamanı bu yerlərdə döyüşüb, addım-addım silahdaşları ilə düşməni məhv edərək irəliləyib. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Cəsur döyüşçü", "İgidliyə görə" medalları onun necə döyüşçü olduğunu bir daha təsdiq edir.

Döyüş atışlı təlimdə Ramiq ona verilən şərti hədəfləri sərrast atəşlə məhv etdi. Bu silah haqqında silahdaşlarına da müfəssəl biliklər aşılayır. Çünki bunu özünə həm də mənəvi borc hesab edir. Döyüş meydanında zərurət yarandıqda döyüşçü silahdan istifadə edərkən hər hansı bir çətinliklə qarşılaşmamalıdı. Onun məqsədi, məramı əsgərlərin döyüş və mənəvi hazırlığının daim yüksəkdə olmasıdır. Daşıdığı silaha qulluq göstərmək, yəni, onu həmişə təmiz və döyüşə yararlı saxlamağın vacibliyini də önə çəkir:

- Döyüşçü savaş meydanında silahdan istifadə edərkən hər hansı bir nasazlıqla qarşılaşmamalıdı. Əgər silaha müntəzəm texniki qulluq göstərilməzsə, döyüş meydanında bu silahdan istədiyin nəticəni əldə edə bilmərsən, - Ramiq dedi. O, çöl təlimi zamanı vaxt olan kimi silahın üzərinə çökmüş tozu silir. Orta məktəb illərində əzbərlədiyi bu məşhur misraları - "Silahını təmiz saxla..." - həmişə xatırlayır və buna ciddi cəhdlə əməl edir. Onun silahı döyüşə həmişə hazırdır.

Təlim zamanı pulemyotçu ilə qısa söhbətimiz bizə xoş ovqat bəxş etdi. Ramiqə və onun silahdaşlarına uğurlar diləyib ayrıldıq. Pulemyotçu isə dirsəkləndiyi yerdə yenidən silahı tuşladığı səmti müşahidə edir, növbəti komandanı gözləyir.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Suallar:**

**1. Ermənilərin Azərbaycana qarşı ərazi iddialarının və təcavüzünün formalaşması tarixi.**

**2. XX əsrin axırlarında erməni separatçılığı. Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişənin yaranma tarixi.**

**Azərbaycan xalqının Ümummilli Lideri Heydər ƏLİYEV:**

***Erməni şovinist millətçilərinin azərbaycanlılara qarşı soyqırımı siyasətinin iki yüz ildən artıq tarixi vardır. Bu mənfur siyasətin qayəsi azərbaycanlıları öz tarixi torpaqlarından qovmaq, bu ərazilərdə mifik "böyük Ermənistan" dövləti yaratmaq olmuşdur. Müəyyən tarixi dövrlərdə bəzi aparıcı dünya dövlətlərinin planlarına uyğun gələn bu siyasəti reallaşdırmaq üçün ardıcıl olaraq ideoloji, hərbi və təşkilati xarakterli tədbirlər həyata keçirilmişdir. Xalqımızın tarixi kobud surətdə təhrif olunmuş, erməni tarixçiləri və ideoloqları toponimlərimizi, mədəniyyət abidələrimizi öz adlarına çıxmaq üçün davamlı səylər göstərmişlər. Onilliklər boyu davam edən soyqırımı siyasəti total ideoloji təcavüz, terror, hətta ayrı-ayrı vaxtlarda tammiqyaslı hərbi əməliyyatlarla müşayiət olunmuşdur.***

**Mövzu:** Erməni terrorizmi və separatizmi. Ermənistanın Azərbaycana qarşı təcavüzü.

### Ermənilərin Azərbaycana qarşı ərazi iddialarının və təcavüzünün formalaşması tarixi

Yerli şəraitə "uyğunlaşmağı", güclülərə "xidmət göstərməyi" yaxşı bacaran ermənilər daim xəyanətkarlıq, satqınlıq "nümunəsini" ortaya qoymuşlar. Onların bu xislətlərindən yararlanmağa çalışan güclü dövlətlər zaman-zaman ermənilərin "xidmət"lərindən bəhrələnmişlər. Hətta Azərbaycanın torpaqları hesabına dövlət qurmalarına belə köməklik göstərərək şərait yaratmışlar. Sonralar ermənilər "böyük Ermənistan" xülyasına düşərək ərazilərini genişləndirməyə başlamış, "erməni soyqırımı" mifini uydurmuş, qonşu dövlətlərə ərazi iddiaları irəli sürmüşlər. Arxalarında güc hiss edəndə isə azğınlaşmış və qəddarlaşmış, azərbaycanlılara qarşı kütləvi qırğınlar törətmişlər.

XIX əsrin əvvəllərində çar Rusiyası ilə Qacarlar dövləti arasında imzalanmış Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələri Azərbaycan tarixində ən ədalətsiz və zorakı müqavilələr olmuşdur. İki dövlət arasında Azərbaycan torpaqlarının bölüşdürülməsinə dair müqavilələrin imzalanmasından sonra ermənilər çox sürətli və kütləvi şəkildə Azərbaycan torpaqlarına köçürülmüş və bunun ardınca süni ərazi bölgüsü aparılmışdır. 1828-1911-ci illərdə bir milyondan çox erməni İran və Osmanlı Türkiyəsindən Azərbaycan əraziləri də daxil olmaqla, Cənubi Qafqaz regionuna köçürülmüşdür. Bu ərazilərin köklü sakinləri olmayan ermənilər həmin torpaqlarda məskunlaşdıqdan sonra Azərbaycana qarşı ərazi iddiaları irəli sürmüşlər.

Ermənilər tarixi Azərbaycan torpaqlarında "böyük Ermənistan" yaratmaq xülyası ilə öz havadarlarının maddi və mənəvi köməyindən istifadə edərək XX əsrin əvvəllərində, yəni, 1905-1907-ci illərdə azərbaycanlılara qarşı bir sıra genişmiqyaslı qanlı qırğınlar törətmişlər. Kütləvi qırğınlar Bakıda başlamış və sonradan bugünkü Ermənistan ərazisindəki, Azərbaycan kəndləri də daxil olmaqla, bütün Azərbaycan ərazisini əhatə etmişdir.

1905-1907-ci illərdə olduğu kimi, Birinci Dünya müharibəsindən və Rusiyada 1917-ci ildə baş vermiş fevral və oktyabr inqilablarından sonra yaranmış vəziyyətdən istifadə edən erməni millətçiləri öz planlarını bolşevizm bayrağı altında həyata keçirməyə başlayırlar. Belə ki, 1918-ci ilin martında Bakı kommunası "əksinqilabi elementlərlə mübarizə" şüarı altında azərbaycanlıları bütün Bakı quberniyasında məhv etmək məqsədi daşıyan planı reallaşdırmağa başlayırlar. Bakıdan başqa, məhz etnik mənsubiyyətlərinə görə Şamaxı, Quba, Qarabağ, Zəngəzur, Naxçıvan, Lənkəran və Azərbaycanın digər bölgələrində minlərlə azərbaycanlı qəddarcasına öldürülür. Bu ərazilərdə mülki əhali kütləvi şəkildə məhv edilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılmış və yer üzündən silinmişdi.

XIX əsrin sonları-XX əsrin əvvəllərində, xüsusən 1905-1907-ci, 1915-1920-ci illərdə Bakıda, bölgələrdə dinc azərbaycanlılara qarşı həyata keçirilən qətliamlar ermənilərin çirkin və məkrli niyyətlərini reallaşdırmaq üçün başladıqları soyqırımı, eyni zamanda, Azərbaycana qarşı ərazi iddiaları siyasətinin ilkin mərhələləri idi.

28 may 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyi elan edilir. Həmin il Cənubi Qafqazda heç bir zaman olmayan Ermənistan adlı bir dövlət elan edildi. 4 iyun 1918-ci il tarixində Türkiyənin Azərbaycan, Gürcüstan və Ermənistan ilə imzaladığı Batum müqaviləsi əsasında 28 may 1918-ci ildə Cənubi Qafqazda yaranmış ilk erməni dövlətinin 29 may 1918-ci ildə Azərbaycan tərəfindən güzəşt edilən paytaxtla birlikdə ərazisi indiki Ermənistanın qərb hissəsini əhatə etməklə ən azı 8000-10.000 kv. km təşkil edirdi. 30 noyabr 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin bolşeviklər tərəfindən işğal olunmasından sonra Ermənistanın sovetləşdirilməsi məqsədilə Zəngəzur qəzasının qərb hissəsi Ermənistanın tərkibinə daxil edildi. Nəticədə, Naxçıvan bölgəsi Azərbaycanın əsas hissəsindən ayrı salındı.

1923-cü il iyulun 7-də isə Azərbaycan SSR Kommunist Partiyası Mərkəzi İcraiyyə Komitəsi "İnzibati mərkəzi Xankəndi olmaqla, Dağlıq Qarabağda Muxtar Vilayətin yaradılması haqqında" qərar qəbul etdi. Ermənistanda yaşayan 300 mindən çox azərbaycanlı istər SSRİ-nin mərkəzi hökuməti, istərsə də Ermənistan SSR hökuməti tərəfindən mədəni muxtariyyət verməkdən imtina edilmişdir.

12 mart 1922-ci ildən 5 dekabr 1936-cı ilədək Azərbaycan, Gürcüstan və Ermənistan Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasını (ZSFSR) təşkil edirdi. Azərbaycanın ZSFSR-ə qəbul olunmasına qədər Yeni Bəyazid qəzasının Basarkeçər bölgəsi və Şərur-Dərələyəz qəzasının üçdə ikisi artıq Ermənistan ərazisi tərkibinə daxil edilmişdi. Azərbaycanın ZSFSR-ə qəbulundan sonra isə Qazax qəzasının bir xeyli hissəsi, Cəbrayıl qəzasından və Naxçıvan Muxtar Sovet Sosialist Respublikasından bir sıra kəndlər Ermənistanın ərazisinə daxil edildi. Beləliklə, "sovetləşdirmə" nəticəsində Ermənistan ərazisi əsasən Azərbaycan torpaqları hesabına 8.000-10.000 kv.km-dən 29.800 kv.km-ə qədər artdı.

Xaricdən gələn ermənilərin məskunlaşdırılması bəhanəsi ilə SSRİ Nazirlər Soveti 23 dekabr 1947-ci il və 10 mart 1948-ci il tarixlərində Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsinə dair xüsusi qərarlar qəbul etdi. Bu qərarlara əsasən, 1948-1953-cü illərdə 150.000-dən çox azərbaycanlı öz tarixi yurdlarından, Ermənistanın dağlıq bölgələrindən, o zaman da susuz Muğan çöllərinə və Mil yaylasına zorla köçürüldü.

1987-ci ilin sonunda Ermənistan açıq şəkildə Azərbaycanın Qarabağ bölgəsinə iddia qaldırdı. Bu iddialardan öncə Ermənistanın təhriki ilə Azərbaycanın Qarabağ bölgəsində, eləcə də Ermənistanda yaşayan azərbaycanlılara qarşı mülki şəxslərin ölümü, azərbaycanlı qaçqın və məcburi köçkünlərin axını ilə nəticələnmiş hücumlar baş vermişdir. Ərazi iddialarının irəli sürülməsindən qısa bir müddət sonra 250.000-dən çox azərbaycanlı Ermənistan adlandırılan ərazidən qovuldu.

### XX əsrin axırlarında erməni separatçılığı. Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişənin yaranma tarixi

1980-ci illərin sonlarında Ermənistanın Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları və etnik zəmində təxribatları, terror əməlləri ilə başlamış bu münaqişə Azərbaycana qarşı hərbi təcavüzlə nəticələnib. Sovet İttifaqı rəhbərliyində təmsil olunan ermənilər, Ermənistan SSR-in rəhbərliyi və xaricdəki erməni diasporu SSRİ-nin mərkəzi hakimiyyətinin zəifləməsindən istifadə edərək Azərbaycan SSR-in tərkibində 1923-cü ildə yaradılmış keçmiş "Dağlıq Qarabağ Muxtar Vilayəti"nin (DQMV) ayrılaraq Ermənistan SSR-ə birləşdirilməsi üçün məqsədyönlü hərəkətə keçiblər. Bununla da 1917-ci ilin fevralında çar hökumətinin yıxılması nəticəsində meydana gələn tarixi şəraitə bənzər vəziyyət SSRİ-nin dağılmasından sonra yenidən təkrar olundu.

1988-ci il fevralın 13-də keçmiş DQMV-nin mərkəzi Xankəndi şəhərində Qarabağ məsələsi ilə əlaqədar ermənilərin ilk nümayişi keçirildi. Fevralın 20-də keçmiş DQMV Xalq Deputatları Sovetinin erməni əsilli deputatları vilayətin Ermənistan SSR-ə birləşdirilməsi təklifinin lehinə səs verdilər. Fevralın 22-də Əsgəran qəsəbəsi yaxınlığında ermənilərin keçmiş DQMV-nin Xalq Deputatları Sovetinin qərarına qarşı etiraz edən dinc azərbaycanlı nümayişçilərə atəş açması nəticəsində iki azərbaycanlı gənc öldürüldü.

1988-ci il iyunun 14-də Ermənistan SSR Ali Soveti keçmiş DQMV-nin Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında qərar qəbul etdi. Azərbaycan SSR Ali Soveti buna etiraz olaraq iyunun 17-də keçmiş DQMV-nin Azərbaycan SSR-in tərkibində olmasını yenidən təsdiq etdi.

1989-cu il dekabrın 1-də Ermənistan SSR Ali Soveti "Ermənistan SSR-in və Dağlıq Qarabağın birləşməsi haqqında" qərar qəbul etdi. Azərbaycana qarşı ərazi iddiaları təkcə millətçi qruplar tərəfindən deyil, həm də Ermənistanın hakimiyyət strukturları tərəfindən irəli sürülürdü. Həmin dövrdə Azərbaycan siyasi elitasının fəaliyyətsizliyi, respublikada siyasi liderin olmaması vəziyyəti daha da çətinləşdirirdi. Proseslərin gedişini hərtərəfli təhlil etməyi bacaran, məsələlərin həlli üçün xalqın iradəsini, prinsipial mövqeyini görən, əhalini vahid məqsəd uğrunda səfərbər edə bilən uzaqgörən şəxsiyyət, görkəmli dövlət xadimi, Ulu Öndər Heydər Əliyev bu dövrdə məcburi istefada idi. Onun siyasətdən uzaqlaşdırılması münaqişənin ermənilərin istəyinə uyğun olaraq daha da dərinləşməsinə bilavasitə təsir göstərdi.

1991-ci ilin sonlarına qədər açıq şəkildə ərazi iddiaları səsləndirən Ermənistanın Azərbaycana qarşı müharibə elan etmədən hərbi əməliyyatlara başlaması ilə münaqişə yeni "qaynar mərhələ"yə keçdi. Hərbi kampaniya dövründə Ermənistan silahlı qüvvələri hərbi və mülki şəxslər arasında heç bir fərq qoymadan işğal etdikləri rayon və şəhərlərdə dinc azərbaycanlı əhalini amansızlıqla qətlə yetirib. Ermənistanın hərbi-siyasi rəhbərliyi Əsgəranın Meşəli, Şuşanın Malıbəyli və Quşçular, Xocavəndin Qaradağlı və Edilli kəndlərində, Xocalı şəhərində, Kəlbəcərin Ağdaban kəndində və digər yerlərdə dinc əhalinin amansız şəkildə sistematik və kütləvi qırğınını, soyqırımını törətməklə, keçmiş "Dağlıq Qarabağ"ın azərbaycanlı əhalisinin bir hissəsini fiziki cəhətdən məhv etmək, qalan hissəsinin isə müqavimət əzmini qırıb regionu onlardan təmizləmək məqsədi güdürdü.

1993-cü ildə Ermənistanın şiddətlənən hərbi təcavüzü, eyni zamanda, Azərbaycanda yaranmış vətəndaş müharibəsi təhlükəsi, hərc-mərclik, iqtisadi böhran, dövlət institutlarının iflic olması ölkəni məhv olmaq təhlükəsi ilə üzbəüz qoymuşdu. Məhz bu kritik anda Azərbaycan xalqı öz qurtuluşunu müdrik dövlət xadimi, Ulu Öndər Heydər Əliyevdə gördü və ölkənin gələcək taleyini ona etibar etdi. Ulu Öndərin ciddi hərbi-təşkilati tədbirləri həyata keçirməsi, işğal olunmuş Vətən torpaqlarını azad etmək sahəsində əldə etdiyi hərbi uğurları sayəsində 1994-cü il mayın 12-də atəşkəsə nail olundu. Bu vaxta qədər Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan Respublikasının 20 faiz ərazisi - Xankəndi şəhəri, Xocalı, Şuşa, Laçın, Xocavənd, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonları, həmçinin Tərtər rayonunun 13, Qazax rayonunun 7, Naxçıvanın Sədərək rayonunun isə 1 kəndi Ermənistan ordusu tərəfindən işğal olunmuşdu. Ermənistanın təcavüzü nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş, 20 min nəfərdən çox azərbaycanlı isə hərbi əməliyyatlar dövründə öldürülmüşdü.

Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi Azərbaycan xalqının milli ideyasının əsas məqsədlərindən birinə çevrilmiş, cəmiyyətimizin bütün resursları bu taleyüklü vəzifənin həllinə yönəlmişdir. 2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19-20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olmuşdur.

Əsası 1970-1980-ci illərdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulmuş, ölkəmizin milli, tarixi və gələcək maraqlarına tam cavab verən Naxçıvanı, Cənubi Qafqazı Avropa və Asiya ilə, həmçinin bütün türk dünyasını coğrafi cəhətdən birləşdirən ən əlverişli körpü rolunu oynayan Zəngəzur dəhlizinin yaradılmasına Müzəffər Ali Baş Komandan İlham Əliyev 44 günlük Vətən müharibəsindən dərhal sonra başlamışdır. Ulu Öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Vətənimizin bir parçası olan Naxçıvanla nəqliyyat və digər kommunikasiya əlaqələrinin bərpa edilməsi fəaliyyətinə başlamaqla, 1920-ci ilin noyabrında tarixi və əzəli torpağımız - Zəngəzuru Ermənistana verməklə, türk dünyasını parçalamaq istəyən mənfur düşmənlərin arzusunu gözlərində qoydu, ümidlərini puç etdi.

Tarixi və əzəli torpaqlarımız İrəvan xanlığıdır, Zəngəzur, Göyçə mahalıdır. Bunu hər bir hərbi qulluqçu bilməli və öz vəzifə borcunu vicdanla yerinə yetirməklə, döyüş və ictimai-siyasi hazırlıq dərslərində, təlimlərdə hərbi biliklərə dərindən yiyələnməklə, mənəvi-psixoloji və fiziki hazırlığını artırmaqla, intizamlı olmaqla, Azərbaycan Ordusu qüdrətini daha da artıraraq, Azərbaycan xalqının əzəli torpaqlarında sülh, əmin-amanlıq şəraitində yaşamasını təmin edəcəkdir.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

## Müdafiə Nazirliyinin komandası minifutbol turnirində qrupun lideridir



Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş dövlət qurumları arasında keçirilən III minifutbol turnirində Azərbaycan Respublikası Müdafiə Nazirliyinin komandası növbəti oyununu keçirib.

Komandamız Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin komandası ilə qarşılaşıb. Gərgin mübarizə şəraitində keçən görüş 1:1 hesabı ilə başa çatıb.

Azərbaycan Futbol Federasiyaları Assosiasiyası, Gənclər və İdman Nazirliyi, eləcə də Azərbaycan Minifutbol Federasiyasının təşkilatçılığı ilə keçirilən turnirdə komandamız 16 xalla "C" qrupunun lideridir.

**"Azərbaycan Ordusu"**

## Ordu İdman Klubu Basketbol Liqasında növbəti qələbəsini qazanıb



Fevralın 2-də Bakı İdman Sarayında davam edən yarışlar çərçivəsində Ordu İdman Klubunun yığması Gəncə komandası ilə görüşüb.





Qarşılaşma 3 xal fərqlə "Ordu"nun üstünlüyü ilə sona çatıb.

Ordu İdman Klubunun komandası 93:90 xal hesabı ilə qalib gəlib.

**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

### Türkiyə ordusu Suriyada 23 terrorçunu məhv edib



Türkiyə ordusu Suriyanın şimalında daha 23 YPG yaraqlısını (PKK terror təşkilatının Suriya qanadı) zərərsizləşdirib.

Bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyi məlumat verib.

Müdafiə Nazirliyi Türkiyə daxilində və xaricində davam edən əməliyyatlarla bölgədə terroru tamamilə zərərsizləşdirmək əzmində olduğunu vurğulayıb.

Bundan əvvəl Türkiyə Müdafiə Nazirliyi ilin əvvəlindən bölgədə, o cümlədən İraqın şimalında və Suriyada 300-ə qədər terrorçunun məhv edildiyini bildirmişdi.

### Filippin və ABŞ hərbi hava qüvvələri birgə təlim keçirəcək



Filippin və ABŞ hərbi hava qüvvələri Qərbi Filippin dənizi üzərində bir sıra təlimlər keçirəcək.

Bu barədə Filippin Hərbi Hava Qüvvələrinin mətbuat xidməti məlumat yayıb. Bildirilib ki, təlim havada birgə döyüş qabiliyyətinin və patrul fəaliyyətinin gücləndirilməsinə, ortaq məqsədlərin dəstəklənməsinə yönəldilib.

Filippin və ABŞ təyyarələri "Filippinin qərb sahili" yaxınlığında görüşəcək.

Məlumatda qeyd edilib ki, təlimin bölgədəki son gərginliklə heç bir əlaqəsi yoxdur.

### Çin "Mach 4" hərbi reaktiv mühərrikini sınaqdan keçirib



Çinin Taihang Milli Laboratoriyasının Aerokosmik Mühərrik Tədqiqat Mərkəzinin mütəxəssisləri süni intellekt texnologiyası ilə təchiz edilmiş "Mach 4" mühərrikinin yerüstü sınaqlarını uğurla başa çatdırıblar.

Bu barədə "South China Morning Post" məlumat yayıb.

Nəşrin məlumatına görə, adı açıqlanmayan mühərrik hərbi məhsul üçün "təchizat zəncirinin 100% lokallaşdırılması" tələblərinə cavab verir. Taihang Milli Laboratoriyası Çinin J-20 döyüş təyyarələrini gücləndirən "Taihang" seriyalı təyyarə mühərrikləri üzərində işi ilə tanınır.

Bu sınaqların elanı Çinin uçuş sürəti səs sürətindən dörd dəfə yüksək olan hərbi təyyarə üzərində işlədiyinin ilk rəsmi təsdiqi idi. Qəzet izah edir ki, layihənin məqsədi Amerikanın "SR-71 Blackbird"dən daha sürətli və təkmil olacaq bir təyyarə yaratmaqdır.

### Müdafiə naziri: Ukrayna Niderlanddan F-16 qırıcılarının yeni partiyasını gözləyir



Kiyev Niderlanddan F-16 qırıcılarının yeni partiyasını gözləyir.

Bu barədə Ukraynanın müdafiə naziri Rustem Umerov feysbuk sosial hesabında bildirib.

"Artıq 2025-ci il üçün müqavilələr var. Əsas prioritet F-16 proqramıdır. Qırıcıların növbəti partiyasının 2025-ci ildə təhvil verilməsini gözləyirik və pilotların, mühəndis-texniki heyətin təlimlərini davam etdiririk", - deyə nazir vurğulayıb.

R.Umerov qeyd edib ki, Niderland 2025-ci ildə Ukraynaya yardım proqramını əhəmiyyətli dərəcədə artırıb.

Qırıcıların tədarük sayı və vaxtı açıqlanmayıb. Ümumilikdə Niderland Ukraynaya 24 ədəd F-16 qırıcısı tədarük edəcəyinə söz verib.

**AZƏRTAC-ın materialları əsasında**

# İdman

### Cüdoçumuz Parisdə qızıl medal qazanıb



Azərbaycan cüdoçuları Fransanın paytaxtı Parisdə keçirilən "Böyük Dəbilqə" turnirinin ilk günündə 2 medal qazanıblar.

Kişilər arasında 66 kiloqram çəki dərəcəsində Ruslan Paşayev finalda Fransa təmsilçisi Daikii Boubanı məğlub edərək, fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Eyni çəkidə çıxış edən Rəşad Yelkiyev 5-ci yerlə kifayətlənib.

73 kiloqram çəki dərəcəsində isə Rəşid Məmmədəliyev üçüncü yer uğrunda görüşdə portuqaliyalı Otari Kvantidzeyə qalib gələrək bürünc medal əldə edib.

### Azərbaycanın stolüstü tennisçiləri Dohadakı turniri 3 medalla başa vurublar



Azərbaycanın stolüstü tennisçiləri Qətərin paytaxtı Dohada keçirilən "WTT Youth Star Contender Doha 2025" turnirini 3 medalla başa vurublar.

Yarışın son günündə mübarizə aparan Onur Quluzadə U-15 kateqoriyasının qoşa turnirində çıxış edib. O, koreyalı həmkarı Ma Yeonqminlə finalda Türkiyə idmançıları Kenan Kahraman və Görkem Ocala uduzaraq gümüş mükafatla kifayətlənib.

Bundan əvvəl O.Quluzadə ilə Yağmur Məmmədli qarışıq-qoşa, Mərziyyə Nurmətova ilə Aylin Əsgərova isə qoşa yarışlarda bürünc medala layiq görülüblər. O.Quluzadə, həmçinin Dohada təşkil olunan "WTT Youth Contender Doha 2025" turnirində ikinci yeri tutub.

### Azərbaycan şahmatçısı beynəlxalq turnirdə 2-ci yeri tutub



Niderlandın Veyk-an-Zee şəhərində keçirilən şahmat üzrə "Tata Steel Chess" turnirinə yekun vurulub.

Yarışın "Challengers" turnirində çıxış edən Aydın Süleymanlı XIII turda Rumıniya təmsilçisi İrina Bulmaqanı məğlub edib. 13 turdan sonra 9,5 xal toplayan A.Süleymanlı yekun nəticədə Tay Day Van Nquenlə (Çexiya) birlikdə 1-2-ci yerləri bölüşüb. Eyni xala malik olmasına baxmayaraq, 19 yaşlı azərbaycanlı şahmatçı əlavə göstəricilərə görə ikinci yeri tutub.

Aydın Süleymanlı turnir ərzində 7 qələbə qazanıb, 5 partiyada heç-heçəyə razılaşıb və cəmi bir oyunda məğlub olub.

### Azərbaycan badmintonçusu beynəlxalq turnirdə gümüş medal qazanıb



Azərbaycan badmintonçusu Keişa Fatimə Zəhra İranda keçirilən 33-cü "İran Fajr International Challenge" turnirində gümüş medal qazanıb.

Qadın badmintonçuların şəxsi yarışında mübarizəyə 1/32 finaldan başlayan idmançı finala gedən yolda İran, Türkiyə, Bolqarıstan və Hindistandan olan rəqiblərinə qalib gəlib. Keişa qızıl medal uğrunda keçirilən həlledici qarşılaşmada Türkiyə badmintonçusu Neslihan Arınla üz-üzə gəlib.

Oyun turnirin reytinq favoriti Neslihanın 2:0 (21-17, 21-14) hesablı qələbəsi ilə başa çatıb.

21 yaşlı badmintonçumuz hazırda Dünya Badminton Federasiyasının reytinq siyahısında 49-cu sırada qərarlaşıb.

**AZƏRTAC-ın materialları əsasında**

Hüseynov İlham Sahib oğluna verilmiş MV № 019345 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
mayor Ceyhun CƏFƏRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
Lalə HÜSEYNOVA

Lisenziya № 361
Sifariş № 25
Nüsxə 3663